

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 203 (21.104)

24 oktyabr 2014-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Almaniya Federativ Respublikasının xarici işlər üzrə federal naziri Frank-Valter Ştaynmayeri qəbul edib.

Almaniyanın xarici işlər üzrə federal naziri Frank-Valter Ştaynmayerin ölkəmizə səfərinin ikitərəfli əlaqələrimizin siyasi, iqtisadi, təhlükəsizlik və digər istiqamətlərdə inkişafı və görüləcək işlərlə bağlı müzakirələrin aparılması üçün yaxşı fürsət yaratdığını qeyd edən dövlətimizin başçısı əməkdaşlığımızın geniş sahələri əhatə etdiyini vurğuladı.

Nazir Frank-Valter Ştaynmayer ölkəmizə son səfərini məmnunluqla xatırladı, həmin səfərdən keçən dövr ərzində Bakıda çox böyük inkişafın şahidi olduğunu qeyd etdi. O, Azərbaycan ilə Almaniya arasında müxtəlif sahələrdə, o cümlədən təhsil, səhiyyə, informasiya və kommunikasiya texnologiyaları sahələrində əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanlar olduğunu bildirdi.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Serbiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Neboyşa Rodiçin etimadnaməsini qəbul edib.

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş

Oktyabrın 23-də İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayətinin ostandarı Qurbanəli Səadətin rəhbərliyi ilə nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına ikigünlük səfərə gəlmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Qərbi Azərbaycan Vilayətinin ostandarı Qurbanəli Səadət və onu müşayiət edən nümayəndə heyəti ilə görüşmüşdür.



Qonaqları səmimiyyətlə salamlayan Ali Məclisin Sədri Qərbi Azərbaycan Vilayətinin ostandarına muxtar respublikaya səfər etdiyinə görə təşəkkürünü bildirmiş, Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İranın qonşu vilayətləri arasında əlaqələrin mehriban qonşuluq prinsipləri əsasında inkişaf etdiyini vurğulamışdır.

Qeyd olunmuşdur ki, hazırda İranın Şərqi və Qərbi Azərbaycan vilayətləri ilə Naxçıvan Muxtar Respublikası arasında əməkdaşlıq əlaqələri mövcuddur. 1992-ci ildə ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi Urmiyaya səfəri zamanı əsası qoyulan münasibətlər ötən dövrdə uğurla inkişaf etdirilmişdir. Hazırda mədəniyyət, təhsil, iqtisadiyyat, kənd təsərrüfatı və ticarət sahəsindəki əlaqələrin inkişafı məmnunluq doğurur.

Ali Məclisin Sədri 2011-ci ildə Qərbi Azərbaycan Vilayətinə səfəri zamanı imzalanan "Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayəti arasında İqtisadi və Mədəni Sahələrdə Əməkdaşlıq haqqında Memorandum"un qarşılıqlı əlaqələrin inkişafı üçün real imkanlar açdığını diqqətə çatdırmış, münasibətlərin bundan sonra da dostluq və qardaşlıq müstəvisində inkişaf edəcəyinə inamını ifadə etmişdir.

Qərbi Azərbaycan Vilayətinin ostandarı Qurbanəli Səadət səmimi görüşə və xoş münasibətə görə minnətdarlıq etmiş, muxtar respublikaya ötən səfərlərini və ümummilli lider Heydər Əliyevlə görüşlərini xatırlamışdır. Qonaq Naxçıvan Muxtar Respublikasının uğurlu sosial-iqtisadi inkişafının məmnunluq doğurduğunu bildirmiş, İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayətinin Naxçıvan Muxtar Respublikası ilə əlaqələrin inkişafına xüsusi önəm verdiyini və hər iki tərəfin səyləri ilə qarşılıqlı faydalı əməkdaşlığın daha da genişləndirilməsinin əhəmiyyətini vurğulamışdır.

Söhbət zamanı əlaqələrin hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır.

Sonda qarşılıqlı hədiyyələr təqdim olunmuş, xatirə şəkli çəkdirilmişdir.

Azərbaycan Respublikasının Təbrizdəki Baş konsulu Əli Əlizadə və İran İslam Respublikasının Naxçıvandakı Baş konsulu Məhəmmədtağı Məhəmmədəli görüşdə iştirak etmişlər.

Qərbi Azərbaycan Vilayətinin ostandarı Naxçıvana səfəri çərçivəsində bir sıra görüşlər keçirəcək, muxtar respublikanın istehsal müəssisələri və görməli yerləri ilə tanış olacaqdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Xarici iqtisadi fəaliyyətlə məşğul olan sahibkarların iştirakı ilə tədbir keçirilib

***Naxçıvan Biznes Mərkəzində keçirilən tədbiri Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Asəf Məmmədov açaraq tədbirin mahiyyətindən danışıb.***

Diskussiya formasında keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının sədri Vüqar Abbasov xarici iqtisadi fəaliyyətlə məşğul olan sahibkarlara normal şərait yaratmaq məqsədilə Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, İqtisadiyyat və Sənaye Nazirliyi, Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi ilə müxtəlif istiqamətlərdə əlaqələri gücləndirmək üçün idxalın tənzimlənməsi, rüsumların bazar iqtisadiyyatına uyğunlaşdırılması və bəzi rüsumlarda güzəştlərin tətbiqi, məhsulların standartlara uyğunluğu, biznes planlarının hazırlanması, problemli kreditlər, onların obyektiv və subyektiv səbəbləri, sahibkarlıq fəaliyyətinin düzgün istiqamətləndirilməsi və digər məsələlər üzrə təkliflər hazırlanacağını bildirib.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat və sənaye naziri Famil Seyidov çıxış edərək son illər muxtar respublikada sahibkarlıq subyektlərinin fəaliyyətinə böyük diqqət və qayğı göstərildiyini vurğulayıb. Qeyd edib ki, yaradılmış şərait hesabına bu gün daxili bazarda yerli istehsalın çəkisi getdikcə artmaqdadır.

Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin Gömrük nəzarətinin təşkili şöbəsinin rəisi, gömrük xidməti polkovnik-leytenantı Zaur Bağırovun, Audit şöbəsinin rəisi, gömrük xidməti polkovniki Tofiq Hüseynovun, Statistika və informasiya texnologiyaları şöbəsinin rəisi, gömrük xidməti kapitanı Emin Eyvazovun və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin nümayəndəsi Səməd Qaralovun məruzələri dinlənilib.

Məruzələrdə qeyd olunub ki, 2012-ci ildə qüvvəyə minən Azərbaycan Respublikasının Gömrük Məcəlləsi yeni gömrük qaydalarının tətbiqini qaçılmaz edib. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 iyul 2014-cü il tarixli Qərarı ilə təsdiq olunmuş "Gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları" da məhz yeni Gömrük Məcəlləsinə müvafiq olaraq, gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi qaydalarını müəyyən edir.

Tədbir iştirakçılarının nəzərinə çatdırılıb ki, komitə tərəfindən Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 98-ci maddəsinə uyğun olaraq, idxal-ixrac əməliyyatları aparmış biznes subyektlərinin gömrük fəaliyyəti üzrə ümumi gömrük auditi həyata keçirilir. Aparılan audit yoxlamalar nəticəsində qanunvericiliyə əsasən, müvafiq müşayiət sənədləri olmadığından gömrük sərhədindən keçən malların vaxtında bəyan edilə bilməməsi, malların müvafiq xüsusi gömrük proseduru altında yerləşdirilməsi zamanı bəyan olunan yol-nəqliyyat xərclərinin real qiymətlərlə uzlaşmaması, müvəqqəti saxlanca qoyulan malların saxlanc müddətinin bitdiyi günə qədər rəsmiləşdirilməsinin təmin edilməməsi, saxlanc haqlarının ödənilməsinin gecikdirilməsi və bu kimi digər çatışmazlıqlar aşkar olunub. Həmin nöqsanların aradan qaldırılması üçün tələb olunan qaydada milli sertifikatlaşma sisteminə uyğun olaraq, sertifikatların vaxtında ödənilməsinin təmin edilməsinə və Vahid Avtomatlaşdırılmış İdarəetmə Sistemi vasitəsilə komitəyə ötürülməsinə, malların müvəqqəti saxlanc anbarlarında yerləşdirilmə şərtlərinə əməl olunmasına, gömrük ödənişlərinin həyata keçirilməsi zamanı elektron ödəmələrdən və POS-terminallardan istifadənin artırılmasına ciddi önəm verilməlidir.



Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri Səbuhi Məmmədov çıxışında muxtar respublikada böyük inkişaf getdiyini, yeni istehsal müəssisələrinin yarandığını diqqətə çatdıraraq bu ilin 9 ayı ərzində banklar tərəfindən sahibkarlıq subyektlərinə 38 milyon manatdan çox kreditlər verildiyini, kreditlərin, əsasən, dövlət proqramlarının icrasına, real sektorun, kiçik və orta sahibkarlığın inkişafına yönəldildiyini, bunun nəticəsi olaraq, kənd təsərrüfatı, yerli sənaye və istehsal mallarının həcminin artdığını bildirib. Qeyd olunub ki, sahibkarlar xarici ölkələrdən aldıqları malların muxtar respublikaya gətirdiklərini təsdiq edən yük-gömrük bəyannamələrini banklara vaxtında təqdim etməli, nağdsız hesablaşmaların həcminin artırılmasına diqqəti artırmalıdırlar.

Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri Bəxtiyar İsmayılov çıxış edərək sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərə aidiyyəti qurumlar arasında hüquqi-normativ tələblərə, istehsal prosesi üçün müəyyən edilmiş texniki qaydalara əməl olunmasının vacibliyini qeyd edib. Bildirib ki, aparılan müşahidələr müxtəlif istehsal sahələrinin fəaliyyəti barədə razılıq doğursa da, bəzi sahibkarlıq subyektlərində nöqsanlar hələ də davam edir. Muxtar respublikada istehsal edilən və digər ölkələrdən idxal olunan ərzaq və qida məhsullarının keyfiyyət göstəriciləri tərəfimizdən nəzarətə götürülüb. İkinci mərhələdə digər sənaye məhsullarının istehsalı və idxalı prosesi üzrə uyğunluğun qiymətləndirilməsi işi həyata keçiriləcəkdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin rəisi Əbil Əbilov sahibkarlar tərəfindən Naxçıvana gətirilən məhsulların ekoloji cəhətdən təmiz olmasına ciddi diqqət yetirilməsinin vacibliyindən danışıb.

Görüşdə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının İqtisadiyyat şöbəsinin müdiri Rəfael Babayev belə tədbirlərin davam etdirilməsinin əhəmiyyətini vurğulayıb, naxçıvanlı sahibkarların gələcək fəaliyyətlərində daha böyük uğurlara imza atacaqlarına əminliyini bildirib.

**Muxtar MƏMMƏDOV**

*Naxçıvan Muxtar Respublikasının (MR) yaradılmasının 90 illik yubileyinə həsr olunmuş silsilə tədbirlər, təqdimatlar, sərgilər davam etməkdədir. Keçirilən tədbirlər bizim bu qədim diyarı yaxından tanımağımıza, onu yenidən "kəşf" etməyimizə imkan yaradır. Bu təqdimatların hər birində Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının milli dövlətçilik tariximizin, elmi, ədəbi-mədəni irsimizin formalaşmasında, zənginləşməsindəki mühüm rolu xüsusi olaraq diqqətə çatdırılır.*

# Qədim və müasir Naxçıvan yeni kitab-albomda





Mədəniyyət və Turizm Nazirliyi tərəfindən hazırlanaraq oktyabrın 22-də M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında təqdim olunan "Naxçıvan Muxtar Respublikası– 90" adlı kitab-albom da bu cəhətdən təqdirəlayiqdir.

AzərTAc xəbər verir ki, kitab-albom Prezident İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında" 2014-cü il 14 yanvar tarixli Sərəncamının icrasına dair Tədbirlər Planına əsasən nəşr olunub.

Hökumət nümayəndələrinin, Milli Məclisin deputatlarının, tanınmış elm və mədəniyyət xadimlərinin iştirak etdikləri tədbirdə mədəniyyət və turizm nazirinin birinci müavini Vaqif Əliyev Naxçıvanın muxtariyyəti asanlıqla qazanmadığına, çətin sınaqlardan keçərək gərgin hərbi-siyasi və diplomatik mübarizələr nəticəsində əldə etdiyinə diqqət çəkib.

Vaqif Əliyev deyib: "Naxçıvanın bugünkü inkişaf səviyyəsinə çatması ulu öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. Ona görə ki, Naxçıvan Azərbaycan xalqına dünya şöhrətli şəxsiyyət, ulu öndər Heydər Əliyevi bəxş edib. Ulu öndər hakimiyyətdə olduğu bütün dövrlərdə Naxçıvana böyük diqqət göstərib.

2018-ci ildə Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı kimi böyük bir missiyanı yerinə yetirəcək ki, bu da qədim diyarın möhtəşəm tədbirlərin keçirildiyi məkanlardan birinə çevrildiyinə bariz nümunədir".

Naxçıvan Muxtar Respublikasının Bakıdakı Daimi Nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərov Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə qeyd olunan Naxçıvan MR-in 90 illik yubileyi ilə bağlı silsilə tədbirlərin bu qədim diyarın tarixinin öyrənilməsi, müasir inkişafının təbliği baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayaraq deyib: "Naxçıvan Muxtar Respublikası – 90" adlı kitab-albom bu silsiləyə böyük töhfədir".

Şəhərsalma mədəniyyətinin 5 min il yaşının faktlarla sübut edildiyi bu qədim oğuz yurdu Naxçıvan bəşəriyyətin ilkin beşiklərindən hesab olunur deyə, sözə başlayan Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli söyləyib ki, buradakı tarixi məkanlardan tapılmış maddi-mədəniyyət nümunələri hər daşı tarixə çevrilən bu qədim Azərbaycan torpağının möhtəşəm keçmişindən xəbər verir.

"Naxçıvanda 1200-dən çox tarixi abidə vardır ki, onlardan da 100-ü dünya əhəmiyyətlidir", – deyən akademikin sözlərinə görə, oxucular yeni kitab-albomdan bu qədim diyarla bağlı zəngin məlumatlar əldə edə biləcəklər.

Ümummilli liderin hakimiyyətə yenidən qayıdışı ilə Azərbaycanda, eləcə də Naxçıvanda həyata keçirilən mühüm layihələrdən söz açan Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov deyib ki, bu gün ulu öndərin siyasi kursunu davam etdirən Prezident İlham Əliyev Azərbaycanı, onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasını da yaşadır və inkişaf etdirir.

Azərbaycan Prezidentinin diqqət və qayğısı sayəsində Naxçıvan Muxtar Respublikasının inkişafının 2003-cü ildən sonrakı dövrü ümummilli liderimiz Heydər Əliyevin quruculuq xəttinin yaradıcı gücünün daha bir əyani ifadəsidir. Bu xəttin davam etdirilməsi blokada şəraitində yaşayan Naxçıvan MR-də dinamik inkişafı təmin edib.

Minilliklərdən boylanan Naxçıvanın tarixi və mədəniyyət abidələri, turizm potensialı, müasir inkişafı, ecazkar təbiətinin əks olunduğu yeni nəşrlə bağlı fikirlərini bölüşən digər natiqlər bu kitab-albomun xarici dillərə tərcümə olunaraq səfirliklərimizə göndərilməsini tövsiyə ediblər.

Təqdimat iştirakçıları sonda "Naxçıvan Muxtar Respublikası – 90" kitab sərgisi ilə tanış olublar.

# Ankarada "Tarixdə və günümüzdə Naxçıvan" mövzusunda konfransda maraqlı məruzələr dinlənilib

*Azərbaycan və Türkiyənin görkəmli elm xadimlərinin, təhsil işçilərinin iştirakı ilə Ankarada Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyinə həsr olunmuş "Tarixdə və günümüzdə Naxçıvan" mövzusunda konfrans keçirilib.*



Azərbaycanın Türkiyədəki səfirliyi ilə Ankara Universitetinin (AU) birgə təşkilatçılığı əsasında bu ali təhsil ocağında keçirilən konfransda səfir Faiq Bağırov və universitetin prorektoru, professor Berahitdin Albayrak Naxçıvanın muxtariyyət statusu almasının tarixi, keçmiş SSRİ dövründə onun ictimai-siyasi, sosial-iqtisadi həyatındakı keyfiyyət dəyişiklikləri, Sovetlər Birliyinin süqutu ərəfəsindən başlayaraq yenidən qarşılaşdığı işğal təhlükəsi, ümummilli lider Heydər Əliyevin tarixi xilaskarlıq missiyası sayəsində mövcud təhlükələrin aradan qaldırılması və müasir inkişaf vəziyyətindən bəhs ediblər.

Professor İbrahim Ethem Atnurun sədrliyi ilə keçirilən konfransda Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin əməkdaşı Emin Şıxəliyevin "Böyük dövlətlərin geosiyasi maraqlarında Naxçıvanın yeri və "Türk qapısı"na gedən yol", Naxçıvan Dövlət Universitetinin dosenti Elçin Zamanovun "XX əsrin əvvəllərində Naxçıvanın qurtuluşu uğrunda mübarizə və mövcud vəziyyət", Ankara Universitetinin dosenti Məmməd Rıza Heyətin "Türk dünyasında Naxçıvanın mədəniyyəti və tarixi şəxsiyyətləri" və Türkiyənin Qazi Universitetinin doktorantı İlhan Aslanın "Sovetlər Birliyinin süqutundan başlayaraq Qafqazdakı çəkişmələrin Naxçıvana sirayəti" mövzularında məruzələri dinlənilib.

Çıxışlarda diqqətə çatdırılıb ki, Azərbaycan və Türkiyənin geosiyasi maraqlarında xüsusi əhəmiyyət daşıyan Naxçıvan bölgəsinə muxtariyyət statusunun verilməsində xalqlarımızın qəhrəman övladlarının mübarizliyi, siyasi və dövlət xadimlərimizin tarixi fəaliyyəti, diplomatlarımızın çevik qərarları tarixi rol oynayıb. XX əsrin əvvəllərində Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürk, onun ən yaxın silahdaşlarından olan Kazım Qarabəkir Paşanın, Behbudağa Şahtaxtinskinin və başqalarının tarixi missiyasını ötən əsrin sonlarında Azərbaycan xalqının xilaskar oğlu Heydər Əliyev həyata keçirib. Ümummilli lider Heydər Əliyev ötən əsrin 90-cı illərinin əvvəllərində Naxçıvan əhalisini ətrafında sıx birləşdirərək bu diyarı əzmlə qoruyub. Sonrakı mərhələdə Prezident İlham Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikası möhtəşəm inkişaf mərhələsini yaşamağa başlayıb.

Məruzəçilər əsaslandırıblar ki, XX əsrdə Naxçıvanın üzləşdiyi erməni təcavüzləri və işğal təhlükəsi artıq tarixdə qalıb. Azərbaycanın müstəqil dövlət kimi varlığı, ölkədə iqtidar-xalq birliyinin mövcudluğu, dəqiq hədəfləri əhatə edən inkişaf strategiyasının reallaşması və Azərbaycan ilə Türkiyənin sarsılmaz qardaşlığı Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyinə və inkişafına zəmindir.

Mərasim çərçivəsində ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin həyat və fəaliyyətlərindən bəhs edən "Böyük insanların həyatı" adlı kitablar, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin "Azərbaycan: qloballaşma dövrünün tələbləri" əsəri, Naxçıvanın tarixi, mədəniyyəti, müasir inkişaf göstəriciləri ilə bağlı nəşrlər sərgilənib və konfrans iştirakçılarına paylanıb.

Sonda məruzəçilərə səfirlik adından xatirə hədiyyələri təqdim olunub.

**Sabir ŞAHTAXTI**
***AzərTAc-ın xüsusi müxbiri, Ankara***

# Əhalinin mənzil-məişət şəraiti yaxşılaşdırılır

Naxçıvan Muxtar Respublikasında aparılan genişhəcmli tikinti-quruculuq işlərinin bir hissəsini əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər təşkil edir. Bu sahədə görülən işlərin nəticəsidir ki, son illər xeyli ailə yeni, hər cür şəraitə malik mənzillərlə təmin olunub. Yeni yaşayış binalarının tikilməsi, təmirə ehtiyac olan binaların əsaslı şəkildə yenidən qurulması insanların rahatlığının təmin olunmasına xidmət edir. Bu istiqamətdə həyata keçirilən tədbirlər Naxçıvan şəhəri daxil olmaqla rayon mərkəzlərini də əhatə edir. Hazırda Babək rayon mərkəzi olan Babək qəsəbəsində 5 mərtəbəli yaşayış binasında əsaslı təmir işləri aparılır. Belə ki, qəsəbənin Heydər Əliyev prospektində yerləşən 60 mənzilli yaşayış binasında təmir işlərinə cari ilin iyul ayından başlanılıb. "Cahan İnşaat" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən yaşayış binasının dam örtüyü vurulub, pəncərələri dəyişdirilib, su xətləri yenilənib. İş icraçısı Salman Abdullayevin verdiyi məlumata görə, hazırda daxildə suvaq işləri aparılır, döşəmə və pilləkənlərə yeni örtük vurulur. Yaxın günlərdə binanın girişlərinə yeni qapılar salınacaq. Eyni zamanda yaşayış binasının aşağı fasad hissəsinin 3 metr hündürlüyədək üzlük daşla üzlənməsi davam etdirilir.

Yerli tikinti materiallarından istifadəyə üstünlük verilən yaşayış binasında təhlükəsizlik qaydalarına da ciddi əməl olunur. Bina hazır olduqdan sonra burada yaradılmış şərait sakinlərə rahatlıq, binanın müasir görkəmi isə qəsəbəyə gözəllik bəxş edəcək.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətindən aldığımız məlumata görə, dünən Şahbuz rayonunda keçirilən əmək yarmarkasına 13 təşkilatdan 120 boş iş yeri təqdim olunub.

# Növbəti əmək yarmarkası Şahbuz rayonunda keçirilib

Tədbirdə rayon Məşğulluq Mərkəzinin direktoru Fəxrəddin Bağırov çıxış edərək deyib ki, işaxtaran vətəndaşların, xüsusilə gənclərin sosial müdafiəsinin gücləndirilməsi, onların münasib işlə təmin olunmaları məqsədilə məşğulluq xidməti orqanları tərəfindən bir sıra aktiv məşğulluq tədbirləri həyata keçirilir. İşəgötürən müəssisə və təşkilatların nümayəndələri məşğulluq mərkəzlərinin mütəxəssisləri ilə birlikdə işaxtaran vətəndaşları müasir dövrdə əmək bazarında işçi qüvvəsinə yaranmış tələbatla bağlı ətraflı şəkildə məlumatlandırmalı, onlara arzuladıqları işlə təmin olunmaq üçün zəruri tövsiyələr verməlidirlər.

İşaxtaran vətəndaş Nihad Baxşəliyev belə tədbirlərin təşkilində əməyi olanlara minnətdarlıq edib.

16 nəfərə işə göndərişin verildiyi yarmarkada Şahbuz Rayon İcra Hakimiyyətinin şöbə müdiri Cəlal Paşayev çıxış edərək rayonda əhalinin məşğulluğu istiqamətində görülən işlərdən danışıb.

Qeyd edək ki, növbəti bu qəbildən olan yarmarka bu gün Culfa rayonunda keçiriləcək.

**Xəbərlər şöbəsi**

# Maarifləndirici tədbirlər davam etdirilir

*Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun şəhər və rayon şöbələri tərəfindən maarifləndirici tədbirlərin keçirilməsi davam etdirilir. Növbəti maarifləndirici tədbir DSMF-nin Culfa Rayon Şöbəsi tərəfindən Kırna kəndində keçirilib. Tədbiri Culfa Rayon İcra Hakimiyyəti başçısının müavini Nazim İmaməliyev açaraq tədbirin əhəmiyyətindən danışıb.*

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun Culfa Rayon Şöbəsinin müdiri Vüsal Məmmədzadə çıxış edərək məcburi dövlət sosial sığortasının mahiyyəti və üstünlükləri, məcburi dövlət sosial sığorta haqlarının onlayn ödəmə sistemi vasitəsilə ödənilməsi, sığortaolunanların pensiya təminatı hüququ və onların fərdi uçot sistemi vasitəsilə əhatə olunması ilə bağlı məsələlər barədə tədbir iştirakçılarına məlumat verib.

Qeyd olunub ki, məcburi dövlət sosial sığortası "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununa görə, bütün əmək müqaviləsi (kontraktı) üzrə işləyənlər barəsində həyata keçirilən sosial təminat formasıdır. Belə ki, işə qəbul olunan hər bir işçi məcburi dövlət sosial sığortası ilə əhatə olunmaqla sığorta iştirakçısına çevrilir. Məcburi dövlət sosial sığortası həyata keçirilən əmək müqaviləsi üzrə çalışan işçilər sığortaolunan hesab edilir və onlara qanunvericilikdə nəzərdə tutulmuş qaydada sığorta şəhadətnaməsi verilir.

Vurğulanıb ki, qanunvericiliyə uyğun olaraq, müxtəlif fəaliyyət növləri üçün məcburi dövlət sosial sığorta haqları müəyyənləşdirilib. Sosial sığortaya cəlb olunan şəxslər əgər öz fəaliyyətlərinə uyğun müəyyənləşdirilmiş məcburi dövlət sosial sığorta haqlarının vaxtlı-vaxtında ödənilməsini təmin edərlərsə, onda özlərini baş verə biləcək sosial sığorta hadisələrindən sığortalamış olacaqlar.

Qeyd olunub ki, məcburi dövlət sosial sığorta haqqı sığortaedənlər tərəfindən onlayn ödəmə sistemi vasitəsilə bankda nağd qaydada və ya internet vasitəsilə plastik kartlardan istifadə etməklə ödənilə bilər.

Tədbirin sonunda torpaq mülkiyyətçilərini maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

*Bu gün Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Hüseyn Cavidin anadan olmasının 132 ili tamam olur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2007-ci il 15 may tarixli Sərəncamı ilə təsdiq olunmuş “Hüseyn Cavidin 125 illiyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı”na əsasən, hər il oktyabrın 24-ü Naxçıvan Muxtar Respublikasında “Hüseyn Cavid Poeziya Günü” kimi qeyd edilir.*

*24 oktyabr Hüseyn Cavid Poeziya Günüdür*

# Bütün zamanların qüdrətli sənətkarı



Qüdrətli sənətkarımız Hüseyn Cavid fikir və düşüncələr aləminin həyatiliyi, heyrətamizliyi, zərifliyi, əlvanlığı, qəlblərə hakim kəsilməsi ilə ədəbiyyat tariximizə əbədi daxil olmuşdur. Onun əsərlərində canlanan həyat səhnələri və həqiqətləri, obraz və xarakterlərinin rəngarəngliyi, dolğunluğu və kamilliyi insanı vəcdə gətirir. Hüseyn Cavid yaradıcılığına müraciət edərkən insan mənən təmizlənir, saflaşır, böyük fikir mübarizələrinin həlledici məqamına çatanda isə özünü ucalıqda, ənginliklərdə hiss edir. Məhz buna görə də zaman keçdikcə, illər ötdükcə bu sənət təsir qüvvəsini itirmir, təzətər sənət dünyası ilə insanı düşündürür, həyata bağlayır. Cavid sənətinə dahiyanə əbədiliklə bərabər, fəlsəfi, əxlaqi konsepsiyaların mürəkkəbliyi və dərinliyi də xasdır.

Sənətkarın yaratdığı obrazlar – Şeyx Sənan, Şeyx Kəbir, Xumar, İblis, Arif, Azər, Əmir Teymur, Xəyyam, Sevda, Əfrasiyab, Səyavuş, Firəngiz, Südabə, Afət, Özdəmir və onlarla başqaları bənzərsizliyi və təkrarolunmazlığı ilə ədəbiyyatımızda əbədiyaşarlıq qazanmışdır. Bu obrazların həyatda apardıqları mübarizə dünya haqqında mükəmməl, insanlıq haqqında kamil təsəvvür yaradır. Hüseyn Cavid sənəti fikir və duyğular, obraz və xarakterlər, zaman və məkan məhdudiyyəti ilə sərhədlənmir, onun yaradıcılığı sonsuzluq və müxtəliflik mücəssəməsidir.

Müdriklərin fikrinə görə, yaratmaq ölümü öldürmək deməkdir. Cavid ölümə qalib gəlmiş bütün zamanların filosof sənətkarıdır. Onun sənəti Nizami, Füzuli, Nəsimi, Vaqif və Sabirdən sonra ədəbiyyat tariximizdə yeni bir mərhələdir.

Ədibin tərcümeyi-halı adi həyat yolu deyildir: böyük sənətkarın həyatının Naxçıvan və Təbriz dövrləri, İstanbulda keçirdiyi təhsil illəri, ədəbiyyata gəlməsi, dramaturq kimi tanınması, əzablı ideya və sənət axtarışları, sovet dövrünün məşəqqətli illəri, əsərlərinin tənqid və mübahisə obyektinə çevrilməsi, pyeslərinin teatr səhnələrindən yığışdırılması, 1937-ci ilin dəhşətli repressiyası, xəstəlikdən əzab çəkməsi, gecə-gündüz sorğu-suala tutulması, bir sıra əsərlərinin itib-batması, sürgün illəri, 1937-1956-cı illərdə onu xalqa unutdurmaq cəhdləri, şəxsiyyətinə və yaradıcılığına şübhə və ehtiyatla yanaşılması, ümummilli liderimiz Heydər Əliyev tərəfindən ədibə əsl bəraətin verilməsi, onun əsərlərinin yenidən çap olunması və Cavid irsinə göstərilən yüksək dövlət qayğısı... Qüdrətli sənətkarın taleyini qısaca belə ifadə etmək olar.

Hüseyn Cavid şəxsiyyətinə və yaradıcılığına verilən yüksək qiymət haqqında düşünərkən böyük sənətkarın mərhum qızı Turan xanımın dediyi bu fikir yada düşür: “Atama əsl bəraəti 1981-ci il iyul ayında “Hüseyn Cavidin 100 illiyi haqqında” qərardan sonra hesab edirəm. Bu, ədalətin zəfər çalması idi. Bunun üçün mən, birinci növbədə, Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevə minnətdaram”. Ümummilli liderimizin təşəbbüsü və rəhbərliyi ilə qəbul edilən bu qərar böyük şair və dramaturqa dövlət səviyyəsində verilən yüksək qiymətin parlaq nümunəsi olmaqla sənətkara münasibətin köklü şəkildə dəyişməsinin istinad nöqtəsi kimi mədəniyyət və ədəbiyyat tariximizdə böyük hadisə idi.

Məhz bu qərardan sonra ümummilli liderimiz Heydər Əliyev çox böyük cəsarət tələb edən bir addım atdı. 1982-ci ildə Cavidin cənazəsi Uzaq Sibirdən Naxçıvana gətirilərək böyük xalq sevgisi ilə dəfn edildi və məzarının üzərində əzəmətli məqbərənin tikilməsi qərara alındı. Bu fakt keçmiş Sovetlər Birliyi məkanında repressiya olunmuş şəxsə dövlət səviyyəsində göstərilmiş münasibətin yeganə cəsarətli nümunəsidir.

Ötən əsrin 70-ci illərindən başlayaraq Cavidin əsərləri nəşr olunmağa başlanmış, rus dilində 2 cildliyi işıq üzü görmüşdür. Azərbaycanın şəhər və rayonlarında yubiley tədbirləri təşkil olunmuş, əsərləri respublikamızın teatrlarında səhnəyə qoyulmuş, adına küçələr, məktəblər, kitabxanalar verilmişdir. 1992-ci il oktyabrın 23-də Naxçıvanda Hüseyn Cavidin 110 illik yubileyi təntənəli şəkildə qeyd edilmişdir. O vaxt Naxçıvanda Ali Məclisin Sədri işləyən ümummilli liderimiz yubiley tədbirində Hüseyn Cavid haqqında dərin məzmunlu çıxış etmiş, böyük sənətkarın xatirəsinin əbədiləşdirilməsi ilə bağlı bir sıra məsələlərə toxunmuşdur.

Görkəmli dövlət xadimi Heydər Əliyevi Cavid şəxsiyyətinə, irsinə, ailəsinə diqqət və qayğı həmişə düşündürürdü. 1995-ci il iyunun 10-da ulu öndərimiz Heydər Əliyevin yanında keçirilmiş müşavirədə görkəmli şair-dramaturq Hüseyn Cavidin məqbərəsinin və ev-muzeyinin yaradılması ilə bağlı məsələlər geniş müzakirə olunmuş, ulu öndərin ən böyük arzularından biri 1996-cı il oktyabrın 29-da həyata keçmişdir. Həmin gün Naxçıvanda böyük sənətkarın məqbərəsinin təntənəli açılış mərasimi olmuşdur. Bu təntənəli mərasimdə geniş nitq söyləyən ümummilli liderimiz sənətkara yüksək qiymət verərək deyirdi: ***“Hüseyn Cavid Azərbaycan xalqını, onun mədəniyyətini, ədəbiyyatını, elmini yüksəklərə qaldıran böyük şəxsiyyətlərdən biridir. Hüseyn Cavidin yaratdığı əsərlər Azərbaycan xalqının milli sərvətidir. Onlar bu gün, gələcək nəsillər üçün dərslik kitabıdır”.***

Bu mərasim böyük Cavidə qayğı və məhəbbətin təntənəsi idi. Cavidin məqbərəsi təkcə böyük sənətkara deyil, Cavidlərə ucaldılan abidədir.

Azərbaycanda Hüseyn Cavidin yubileylərinin keçirilməsi, əsl poeziya bayramlarına çevrilməsi sənət və sənətkara ulu öndərin verdiyi qiymətin nəticəsidir. Bu yubileylərin keçirilməsi artıq ənənəyə çevrilmişdir. “Cavid ömrü boyu” salnaməsinin hazırlanması, əsərlərinin kütləvi tirajla nəşr olunması, bədii və sənədli filmlərin çəkilməsi, televiziya tamaşalarının hazırlanması, pyeslərinin ölkəmizin müxtəlif teatrlarında səhnəyə qoyulması da Hüseyn Cavid irsinə qayğının bir hissəsidir. Son illər Hüseyn Cavid haqqında çoxsaylı tədqiqat əsərlərinin, monoqrafiyaların yazılması böyük sənətkarın yaradıcılığına marağın göstəricisidir. Cavid haqqında təsviri incəsənətimizdə və ədəbiyyatımızda onun obrazının yaradılması sahəsində görülən işlər də təqdirolunası hadisələrdəndir.

Zaman keçdikcə Hüseyn Cavid irsinə maraq daha da artır. Ulu öndərimizin yolunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin 2007-ci ildə imzaladığı “Hüseyn Cavidin 125 illik yubileyi haqqında” Sərəncam, eləcə də “Hüseyn Cavidin 130 illik yubileyinin keçirilməsi haqqında” 2012-ci il 16 fevral tarixli Sərəncam Hüseyn Cavid yaradıcılığına göstərilən növbəti dövlət qayğısıdır. Sərəncamda deyilir: ***“Hüseyn Cavid dərin fəlsəfi-estetik məzmuna malik yaradıcılığı ilə ədəbiyyatımızda yeni bir mərhələnin başlanğıcını qoymuşdur. Sənətkarın dünya romantizmi ənənələri zəminində bəşəriyyətin mənəvi həyatı ilə bağlı axtarışlarının ifadəsi olan lirik əsərləri, mənzum faciə və tarixi dramları qiymətli söz inciləri kimi xalqımızın zəngin fikir xəzinəsində layiqli yer tutur”.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 20 fevral tarixli Sərəncamı ilə “Hüseyn Cavidin 130 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı” təsdiq edilmişdir. Tədbirlər Planına əsasən, Hüseyn Cavidin 130 illik yubileyi ilə əlaqədar simpozium keçirilmiş, Naxçıvan Dövlət Musiqili Dram Teatrında “Şeyx Sənan” əsəri səhnəyə qoyulmuş, “Naxçıvan” jurnalının bir nömrəsi ədibin yubileyinə həsr olunmuşdur. Azərbaycan Prezidentinin Sərəncamına, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planına uyğun olaraq, Hüseyn Cavidin 130 illik yubileyi ilə əlaqədar muxtar respublikamızda silsilə tədbirlər keçirilmişdir. AMEA-nın Naxçıvan Bölməsində, ali təhsil ocaqlarında, mədəniyyət müəssisələrində Hüseyn Cavidin həyat və yaradıcılığına həsr olunan elmi konfrans və tədbirlər təşkil olunmuş, kütləvi informasiya vasitələrində böyük ədibin həyat və yaradıcılığı işıqlandırılmış, ideyaları təbliğ olunmuşdur. Bütün bunlar bir daha onu göstərir ki, Hüseyn Cavid yaradıcılığının öyrənilməsi və təbliği diqqət mərkəzindədir.

Hüseyn Cavidin əsərlərinin əsas ideyası insan mənəviyyatının təsviri və tərənnümüdür. Böyük dramaturqun bütün əsərlərinin mərkəzində yalnız insan durur; bütün qayələr, arzular, mülahizə və görüşlər, dinlər, məzhəblər, təriqətlər insanın daxili, mənəvi aləmindən, onun “mən”inin süzgəcindən keçirilərək qiymətləndirilir. Bu baxımdan deyə bilərik ki, insan onun əsərlərində təsvir olunan obraz və hadisələrin təsvirində dövründən asılı olmayaraq, hər zaman meyar rolunu oynamışdır. Çünki lirik-romantik şair insanlara həm də gözəllik meyarı ilə baxırdı.

*Heç vaxt sənətkar vicdanına xəyanət etməyən Hüseyn Cavid yaradıcılığı boyu nə yazmışdırsa, öz vicdanının səsi ilə yazmışdır. “Əsiri olduğum bir şey varsa, o da həqiqət və yenə həqiqətdir”, – deyən dahi sənətkar bütün yaradıcılığı boyu öz doğma xalqını azad və xoşbəxt görmək, ana Vətənə xidmət etmək kimi ali məqsəd, ülvi hisslər tərənnüm etmişdir. Ədibin 130 illik yubiley tədbirində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi:* ***“Hüseyn Cavid nə yazmışsa, Azərbaycan üçün, Azərbaycan oxucusu üçün, Azərbaycan xalqı üçün yazmışdır. Millilik, vətənçilik, Azərbaycançılıq onun yaradıcılığının ruhunda və qanındadır. Cavidin şeir dili təmiz Azərbaycan-türk dilidir. Hüseyn Cavid əsərlərinin mövzusunun və qəhrəmanının hansı dövrü və ya hansı mühiti təmsil etməsindən asılı olmayaraq, bu əsərlərdə irəli sürülən ideyalar, birinci növbədə, azərbaycanlı oxucunun özünü dərk etməsinə, vətən tarixini, onun milli dəyərlərini öyrənməsinə, mədəni irsə sahib çıxmasına yönəlmişdir”.***

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

*Cənubi Qafqaz və Yaxın Şərq üzrə ekspert, jurnalist Nadana Fridrixson IV Bakı Beynəlxalq Humanitar Forumunun iştirakçısı olmuşdur. Forumun bir qrup iştirakçısı ilə Naxçıvana gələn Nadana Fridrixson qayıtdıqdan sonra Rusiyanın “Qafqaz siyasəti” portalında səfər təəssüratlarını bölüşmüşdür. Həmin yazı ilə oxucularımızı tanış edirik:*

# Naxçıvana səyahət

Görəsən, Rusiyadan olan bir insan Azərbaycanın əsas torpağından “qoparılmış” bir şəhərinin vəziyyəti haqqında nə düşünə bilər? Ən azından, yöndəmsiz köhnə binalar, fasadı sökülüb-dağılmış hökumət qurumlarının binaları, gözə dəyməyən gənc insanlar və daha nələr... Bütün bu təsəvvürlər isə Naxçıvanın coğrafi mövqeyinin nəzərə alınması ilə daha da qətiləşər. Əslində isə o təkcə Azərbaycandan ayrı salınmamış, həm də üzərində gömrük məntəqələri olan təbii sərhəd – Araz çayı ilə İranla və Ermənistanla əhatəyə alınmışdır.

### *Hava limanına endiyimizdə necə qarşılandıq?*

İlk olaraq, jurnalistlər müxtəlif ölkələrdən gəlmiş qonaqların təyyarədən düşməsini foto və videolentə alırdılar. Daha sonra onlar Naxçıvanın qonaqlarından müsahibələr alaraq Bakıda keçirilmiş IV Beynəlxalq Humanitar Forum barədə və elə şəhərin özü haqqında təəssüratlarını soruşurdular. Bizi biri rusdilli nümayəndələr, digəri isə digər əcnəbilər üçün ayrılmış avtobuslara dəvət edib bələdçilərlə tanış etdilər. Fasilə üçün ayrılan qısa müddətdən sonra biz təsəvvürlərimizi daha da zənginləşdirməyə – Naxçıvan şəhərinə tərəf yol aldıq.

Yerləşəcəyimiz mehmanxana jurnalistlər üçün çox əlverişli ola biləcək yüksəkliklərlə əhatə olunmuş bir yerdə idi. Diqqəti ən çox cəlb edən isə elə pəncərədən müşahidə olunan hərbi texnika və əsgərlər oldu. Sonra bizə izah etdilər ki, bu, döyüş deyil, sadəcə, hərbi təlimdir. Bu situasiya qarşılanma nöqteyi-nəzərindən səciyyəvi oldu. Adamın lap burnunun ucunda keçirilən belə bir tədbirin nə ola biləcəyini dərhal başa düşən rusiyalı nümayəndələr bunu normal qarşıladılar. Amma Avropadan gəlmiş qonaqlar, deyəsən, bir az həyəcanlanmışdılar.

### *Azərbaycan: Günəş və çimərliklər*

Əşyalarımızı yerbəyer etdikdən və günorta yeməyində həmkarlarımızla qarşıdakı tur haqqında müzakirə apardıqdan sonra, nəhayət, avtobuslara minib Naxçıvan şəhərinə yollandıq. Mən Mədəniyyət və Turizm Nazirliyinin şöbə müdiri Vüqarla tanış oldum. Onun vəzifəsi təbliğat işi idi. O danışırdı ki, burada təkcə xarici turizmə deyil, həm də daxili turizmə geniş yer verilir. Hər bir ölkədən turistlərin cəlb olunması üçün strategiya hazırlayan xüsusi şöbə vardır.

Rusiya üçün, məsələn, “Günəş və çimərlik” şüarı müəyyən olunmuşdur. Bütün broşürlər əvvəlcə ingilis dilində nəşr olunur, sonra isə digər dillərə çevrilir.

Naxçıvan haqqında o, belə deyirdi ki, əsasən, onun coğrafi mövqeyinə görə ildən-ilə bu regiona maraq artmaqdıdır. Naxçıvan hökuməti turizmin inkişafına hərtərəfli dəstək göstərir. Burada hər iş təfərrüatına qədər dəqiqdir. Turist daşıyan avtobusları polis müşayiət edir. Bələdçilər bir neçə dildə danışırlar. Turistlərin gəlişi ilə ziyarət proqramları da yenilənir. Bir sözlə, yerli hökumət hərtərəfli köməyini göstərir.

### *Təsəvvürlər və reallıq*

Naxçıvanı daha çox tanıdıqca biz başa düşdük ki, buradakı real mənzərələrin Rusiyadakı təsəvvürlərlə oxşarlığı yoxdu. “Qoparılmış region” çiçəklənən və memarlıq cəhətdən cazibədar bir yerdir. Bütün bunlar isə rəsmi Bakının mərkəzlə regionların sosial-iqtisadi inkişaf fərqinin azaldılmasına yönəldilmiş regional siyasətinə tam cavab verir. Bu problem isə Rusiyadakı ilə eyni olsa da, dövlətlərin gücü ilə müqayisədə bu, Azərbaycanda daha sürətli templə həll olunur. Azərbaycan hökuməti artıq çoxdan (demək olar ki, on il) regionların inkişafına xüsusi diqqət yetirir.

Naxçıvanın küçələri heyrətamiz dərəcədə təmizdir. Nə küçənin ortasına atılmış kağız, nə də siqaret kötüyü görmək mümkündür.

Yeni evlər vardır. Onlar boz-bulanıq doqquzmərtəbəli kibrit qutuları kimi deyil, yaşamağın ləzzətini bilənlərin gözünü oxşayan dərəcədə müasirdirlər. Yaşı yüzə çatmış köhnə evlər də vardır. Onların da fasadı yenilənir. Şəhərdə mədəniyyət xadimlərinin abidələri vardır. Yaxın keçmişdə muxtar respublikada ən yaxşı Doğum Mərkəzinin uca binası tikilmişdir. Bələdçi vurğuladı ki, Doğum Mərkəzi təkcə xarici görünüşünə görə deyil, xidmətlərinə görə də Avropa standartları səviyyəsindədir.

Çoxlu muzey və tarixi yerləri olan şəhərdə Musiqili Dram Teatrı fəaliyyət göstərir.

İlk olaraq, biz Heydər Əliyev Muzeyini ziyarət etdik. Görkəmli siyasətçinin həyatını əks etdirən ekspozisiyalar, əsasən, fotoşəkillərdən, şəxsi əşyalardan, o cümlədən sənədlərdən ibarətdir. Daha sonra Xalça Muzeyi, Tarix Muzeyi və həmçinin “Şərqin Şekspri” adlandırılan Hüseyn Cavidin məvzoleyində olduq.

Günün sonunda biz Duzdağ Fizioterapiya Mərkəzinə baş çəkdik. Maraqlıdır ki, bu mərkəz birbaşa dağın içərisində yerləşir. Yaxşı işıqlandırılmış uzun tunellər açılmışdır. Ayaqlar altında daşduz vardır, dəhliz şaxələnərək kiçik otaqlara aparıb çıxarır. Burada çarpayılar, lampa, kiçik şkaflar vardır. Otaqlar bağlı olmur. Bizə izah etdilər ki, belə pansionatda qalmaq, təqribən, 30 manatadır. Bu, ayrıca otaq götürmək istəyənlər üçündür. Müalicə kursu 21 gün davam edir. Düzdür, burada imkanlı adamlar üçün kiçik çarpayılar və dolabçalarla təmin olunmuş geniş otaqlar da vardır. Bizim qrupdakıların bəzilərinin fikrincə, burada bir sutka və hətta 21 gün qalmaq heç də asan olmaz. Amma, sən demə, insanlar bura bir neçə saatlığa da gəlirlər.

### *Təhsil işıqlı sabahdır*

Turun yekununda qrupumuzda qızğın şəkildə gördüklərimizin müzakirəsi gedirdi. Kiməsə tarixi abidələr çox xoş gəlmiş, bir başqaları da səfərin sonunda baş çəkdiyimiz universiteti daha çox vurğulayırdı. Universitetdə 10-a yaxın fakültə, müasir laboratoriyalar vardır.

Azərbaycanda, ümumiyyətlə, təhsilə ciddi diqqət yetirilir. Respublikada Lomonosov adına Moskva Dövlət Universitetindən tutmuş Oksford və Yale universitetlərinə qədər dünyanın aparıcı universitetləri ilə əlaqələr yaradılıb.

Tələbələr dövlət tərəfindən haqqı ödənilərək xarici universitetlərə dövlət proqramı üzrə qəbul oluna bilirlər. Tək şərt ondan ibarətdir ki, yeni məzun olmuş mütəxəssis öz vətəninə qayıdaraq minimum beş il işləməlidir. Lakin bu heç də ölkə daxilində ali təhsil sisteminin inkişafına mane olmur. Bu mənada Naxçıvan universiteti nümunəvi bir yerdir.

### *Naxçıvana uçub gəlin*

Qaldı iki il bundan əvvəl Moskvada keçirilmiş sərgidə “Naxçıvana uçub gəlin” adının təzələnməsinə.

Siz peşman olmazsınız: dağlar, gur sulu Araz çayı, orta əsrlərə aid daş abidələr, üçrəng çalarlı təpələr – bütün bunlar bizim düşündüyümüzdən daha cazibədardırlar.

## Milli dəyərlərimizi öyrənək və yaşadaq

# Ənənəni qoruyaq, evdə xalça toxuyaq

## İlmələr vurulur, naxışlar yaranır

*Xalqımızın həyat və məişətini əks etdirən xalq yaradıcılığının ən zəngin və orijinal nümunələrindən biri də xalçaçılıq sənətidir. Min illərdən üzübəri bu sənətin biliciləri ipək nənələr, ağbirçək analardır. Onların əlinin sığalı ilə yüzlərlə, minlərlə xalçalar ərsəyə gəlib ki, həmin xalçalar əvəzsiz sənət əsəri kimi bu gün muzeylərimizdə, evlərimizdə qorunub saxlanılmaqdadır. Minbir həvəslə toxunan həmin xalçalara baxanda gözümüz bir naxışda, bir rəngdə ilişib qalır. Çünki o naxışa, o boyaya heyran oluruq. Bu naxışlara baxanda həm də elə bilirsən ki, göy gurladı, gürşad oynadı, yağışlar yağdı, yeddi rəngin çələngində Fatma nənənin hanası uzandı. Elə bil ki, bir azdan Günəş buludların arasından boylanıb lalənin gözünün giləsində mürgüləyəcək. Başqa bir xalçada isə arılar iri güllərin tacından çıxıb sanki qanadlarını çırpır, qızılı toz ələnir otlara, çiçəklərə. Bir başqa xalıda isə igidlər qara zurnanın sədaları altında dövrə vurur. Hər biri bir dövrün tarixini özündə yaşadan bir yadigar kimi arzuların, niyyətlərin çiçək açdığı xalılar, xalçalar qızların, gəlinlərin barmaqlarının istisi, hərarəti ilə ilmə-ilmə toxunub, naxışlanıb və hasilə gəlib.*



Hələ dünyanı dərk etmədiyim kiçik yaşlarımda kəndə gedəndə xalça toxuyan nənəmin zümzüməsi ilə oxuduğu mahnıları indi də xatırlayıram. Bəzən isə nəvələrinə elə xalça toxuya-toxuya nənəm belə layla çalardı:

*Şirinsən özün, balam,*
*Bal dadır sözün, balam.*
*Dolansan xalça üstdə,*
*Tük seçər gözün, balam.*

Ayrı-ayrı bölgələr kimi, Şahbuz rayonunda da xalçaçılıq sənəti geniş yayılıb. Uzun illər Şahbuz yurdunun kəndlərində, əsasən, payız, qış aylarında az qala hər bir evdə hana qurular, xalça toxunar, qızlara cehiz hazırlanardı.

Bu xalçaların hər birinin öz naxışı və öz müəllifi olardı. Ona görə də xalqımıza məxsus xalçalar bizdən başqa heç kimə sirr verməz. Deyilənlərə görə, əsir düşmüş qız sevgilisinə özünü nişan vermək üçün bir xalça toxuyur. İlmələrlə, rənglərlə olduğu şəhəri, onun xilas yollarını sevgilisinə bildirir. Qızın sevgilisi xalçanı görən kimi işin nə yerdə olduğunu anlayır və bu "xəritə xalça" ona yol göstərir. Deməli, xalçalar da ilmələrində, rənglərində bu xalqın yaratdığı əfsanələri, nağılları özündə ehtiva edir.

İllər ötdükcə müasir elmi-texniki yeniliklərin tətbiqi bu sənətə olan ehtiyacı bir qədər azaltdı. Amma zaman sübut edir ki, xalqın hələ qədimlərdən yaratdığı nə varsa, o, bu gün də öz dəyərini, qiymətini saxlayır. Bəlkə, elə bu səbəbdəndir ki, dövrümüzə qədər yaşayan xalçaçılıq sənəti bu gün də kəndlərimizdə yaşadılır; nənələrimizin əlinin sığalı ilə, ürəyinin istisi ilə təzə xalçalar toxunur. Təbii ip, boya, əriş, arğac vasitəsilə yaranan bu el sənəti nümunəsi olan xalçalar öz keyfiyyəti ilə də əvəzolunmazdır.

Şahbuz rayonunun aranında, yaylağında milli mədəniyyətimizin, sənətimizin, ənənələrimizin yaradıcısı olan insanlar zaman-zaman əvəzsiz sənət əsərləri, o cümlədən gözəl xalçalar toxuyub araya-ərsəyə gətiriblər. Kəndlərimizdə yaşayan qadınların bu sənətə olan marağını evlərdəki xalçaçılıq məmulatlarının və xalça toxuculuğu ilə bağlı əşyaların çeşid müxtəlifliyi də sübut edir.

Muxtar respublikamızda milli dəyərlərə, xalq sənətkarlığına hərtərəfli qayğı göstərilir. Qədim el sənətinin biliciləri olan qadınlar xalça toxumaq üçün məşğulluq orqanları ilə müqavilələr bağlayaraq toxuculuq dəzgahları, alətləri, əriş, arğac və rəngli iplərlə təmin olunublar. Əsasən, uzunluğu 1 metr 20 santimetr, eni 80 santimetr olan kiçikölçülü xalçaların milli ornamentli və Naxçıvan bölgəsinə aid naxışlarla toxunmasına diqqət yetirilir. Şahbuz rayonunda bu istiqamətdə həyata keçirilən tədbirlərdə, əsasən, Kolanı və Aşağı Qışlaq kəndlərində qədim el sənətinin biliciləri olan qadınlar iştirak edirlər. Onlar qısa zaman ərzində 7 belə xalça toxuyaraq sərgi və satış-sərgilərə təqdim ediblər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun milli mentalitetimizə, dəyərlərimizə, şifahi xalq yaradıcılığına, o cümlədən qədim el sənətkarlığının inkişaf etdirilməsinə göstərdiyi qayğı öz bəhrəsini verir. Əhalinin fərdi məşğulluğunun təmin edilməsi sahəsində belə tədbirlərin həyata keçirilməsi insanların maddi rifah halının güclənməsinə də müsbət təsir göstərir. Bu mənada kəndli qadınların boş vaxtlarında mənalı işlə məşğul olaraq həm qədim xalq sənətinin yeni nümunələrini yaratmaları, həm də ailə büdcəsinə köməklik etmələri, doğrudan da, təqdirolunası haldır. Toxunan hər bir xalça müqabilində əməkhaqqı ödənilir. Həmin qadınlarla söhbətimiz zamanı bildirdilər ki, hər bir xalça üçün verilən pul çəkilən əziyyətin müqabilində onları razı salır. Xalçaçı qadınlardan biri ilə söhbətimi oxucularımıza təqdim etmək istəyirəm.

Xalçaçılığın sirlərini qızlarına, gəlinlərinə öyrətməklə onu gələcək nəsillərə çatdıran bu qadın Şahbuz rayonunun Aşağı Qışlaq kəndində yaşayan Südabə Məhərrəmovadır.

S.Məhərrəmovanın toxuduğu xalçaları görmək marağı ilə həmin kəndə üz tutdum. Xalçaçı qadının əl işləri, doğrudan da, tərifəlayiqdir. Bu xalça ustasından sənətin sirləri barədə soruşanda bildirdi ki, xalçanın gözəlliyi onun naxışında və rənglərin düzgün seçilməsindədir. Hananın üstündən toptop asılmış rəngli iplər, kirgid, həvə, qayçı, bıçaq, bir də ip qırıntıları nəzərimi çəkdi. Həmin iplərlə çalınmış ilmələr valehedici, bir-birindən gözəl naxışlara çevrilirdi. S.Məhərrəmovanın söhbət edə-edə xalça toxuması onun bu sənətə olan sevgisinin ifadəsi idi. İşindən ayırmadan ona suallar verməyə başladım:

*– Xalçanın gözəlliyi rəngdə, yoxsa naxışdadır?*

– Bizim xalçaların bənzərsizliyinin sirri bu yerdə bəslənən qoyun-quzulardan alınan yundadır. Həmin yundan əyirilib hasilə gətirilən iplər yeddi rəngin minbir çeşidindən rəng alıb sanki ev-ev xalçalara daşınıb, palazlara hopdurulub. Belə xalça-palazları kənd evlərinin Günəşə açılan pəncərələrində tez-tez görmək adi bir haldır. Çünki bu xalçaların ilkin yaradıcısı və ilkin vətəni elə kəndlərimizdir. O xalçalar analarımızın iplərinin hərarəti, barmaqlarının izi yaşayan əvəzsiz sənət əsərləridir. Xalqımıza məxsus bu sənətin indiki dövrdə yaşadılması, gələcək nəsillərə çatdırılması üçün də bir çox işlər görülür.

*– İlk dəfə xalça toxumaq marağınız və həvəsiniz necə yarandı?*

– Mən hələ balaca ikən nənəmin, anamın yanında oturmuşam və onların xalça toxumağına baxmışam. Ona görə yox ki, xalça toxumaq istəmişəm. Sadəcə olaraq, il boyu evimizdə xalça toxunduğuna görə bu, mənim üçün adi bir əyləncə idi. İllər mən hiss eləmədən keçib gedib. Və ilmələrə, saplara, naxışlara baxa-baxa bir də görmüşəm ki, xalçaçılığın sirrini, sehrini özündə saxlayan ilmələrə, saplara vurğunam. Nə vaxtdan xalça toxumağa başladığımı isə dəqiq xatırlamıram. Xalçadakı naxışların valehedici olması rənglərin düzgün seçilməsindən çox asılıdır. Deməli, rəng düzgün seçiləndə, naxışlar düz toxunanda barmaqların sehri ilə bir sənət əsəri yaratmaq olur. Yanlış vurulan naxışı usta seçər, naşı seçə bilməz. Mən də həmişə çalışmışam, yanlış naxış vurmayım ki, usta xalçaçılar məni qınamasınlar. Bax beləcə ömrün yarısından çoxunu yaşamışam, bu sənətdən ayrı düşməmişəm. Çünki ona qəlbən bağlıyam.

*– Bu sənətin sirri varmı?*

– Hər bir sənətin özünəməxsus sirri var. Xalçaçılığın da qədimdən bu günə miras qalan sirləri çoxdur. Bitib-tükənməyən naxışları salmaq üçün xalçaçı nəyi bilməlidir, nəyi öyrənməlidir, ilmələri necə çalmalıdır? Bütün bunların hər biri bir sirdir. Mən çalışmışam ki, əsl sənət nümunəsi yaratmaq üçün o sirlərə vaqif olum.

*– Yaxşı xalça toxumaq üçün xüsusi alətlər varmı?*

– Nəinki xüsusi alətlər, həm də lazımi iplər, əriş, arğac və başqa əşyalar da tələb olunur. Buna görə xalça toxumağa hazırlıq xüsusi bir dəm-dəsgahla başlayır. Əvvəlcə yun yuyulur, daranır, uzun qış gecələrində cəhrədə əlçim-əlçim əyirilib ip hazırlanır. İp kələfi boya çağını gözləyir. İpin yaxşı boyanması boyaqçının boyağından çox asılıdır. Boyaq yaxşı olanda toxunan xalçanın rəngi əsrlərlə solmaz. Elə ki xalça toxunacaq iplər hazır oldu, hana qurulur, qız-gəlin cəm olub başlayır xalçanı toxumağa. Xalçanın başlığı var, küncü var, gölü var, butası var, yeləni var. Bunların hər birini toxumaq xüsusi bacarıq tələb edir. Əvvəlcədən xalçanın çeşnisi götürülür. Elə ki xalça toxunub qurtardı, gəbəkəsdi mərasimi keçirilir. Xalçaçılar bir yerə cəm olur, xalçanı kəsib yerə salırlar. Və üstündə yaxşı bir qonaqlıq edirlər ki, həmin xalça xeyir işlərdə istifadə olunsun. Bir sözlə, xalçaçılıq səbir, diqqət və dözümlülük tələb edən sənətdir. Ona görə də bu sənəti sevərək, ona vurğun olaraq gəlmək lazımdır.

Söhbətimiz uzun çəkdi. Və o müddətdə gözləri hanada, ilmədə, naxışda olan Südabə xanım böyük həvəslə, zövqlə həm söhbət etdi, həm də bir xeyli ilmə çaldı, naxış vurdu. Bildirdi ki, bu xalça da yaxın vaxtlarda toxunub qurtaracaq...

Deməli, yeni bir sənət əsəri ərsəyə gələcək.

Xalq yaradıcılığının dəyərli incilərindən sayılan xalçaçılıq sənətini bu gün də böyük həvəslə davam etdirən və gələcək nəsillərə çatdırmaq istəyən Südabə xanım, yəqin ki, hələ bundan sonra da ömür vəfa elədikcə neçə-neçə xalçalar toxuyacaq. Neçə-neçə qıza, gəlinə onun sirlərini öyrədəcək. Toxuyacağı xalçalar onun ömür yolunun bəzəyi olacaq.

Deyirlər ki, hər xalçada toxuyanın özünəməxsus nişanəsi olur. Südabə xanımın da nişanəsi onun xalçalarında əbədiləşib. Uzun illər keçsə belə, bu nişanə onun toxuduğu xalçalarda yadigar qalacaq, gələcək nəsillərə onun sənətindən xəbər verəcək.

**Şəhla NƏBİYEVA**

# Gəncləri Heydər Əliyev ideyalarına sədaqət ruhunda yetişdirmək şərəfli vəzifədir

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2014-cü il avqustun 21-də "Heydər Əliyev adına tam orta məktəbin yaradılmasının 10 illiyinin qeyd olunması haqqında" Sərəncam imzalayıb və yubileylə bağlı Tədbirlər Planı təsdiq edilib.Tədbirlər Planına əsasən, oktyabrın 22-də Heydər Əliyev adına tam orta məktəbin 10 illik yubileyi geniş şəkildə qeyd olunub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 21 oktyabr tarixli Sərəncamı ilə Heydər Əliyev adına tam orta məktəbin 2 müəllimi "Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi" fəxri adına layiq görülüb. Fəxri ada layiq görülən müəllimlərin ürək sözlərini oxucularımıza təqdim edirik:*



***Ruqiyyə ZEYNALOVA:*** – Müxtəlif təhsil ocaqlarında çalışmışam. 2004-cü ildən Heydər Əliyev adına tam orta məktəbdə pedaqoji fəaliyyətimi davam etdirirəm. Bu məktəbdə işləmək mənim üçün həm qürurverici, həm də məsuliyyətlidir. Məktəbimiz əldə etdiyi uğurlu nəticələrə görə muxtar respublikanın digər təhsil ocaqları üçün bir nümunə səviyyəsinə çatıb. Bu nailiyyətdə mənim də payım olduğu üçün çox sevinirəm. Yubiley ərəfəsində "Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi" adına layiq görülməyimi məktəbin fəaliyyətinə verilən yüksək mükafat kimi dəyərləndirirəm. Gəncləri Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ideyalarına sədaqət ruhunda yetişdirmək şərəfli vəzifədir.

Məktəbimizin ilbəil artan uğurları ölkə Prezidentinin tövsiyələrinə əməl edilməklə qazanılır, yeni təhsil ənənələri yaradılır. Keçilən dərslərdə dövlət rəmzlərinə, müstəqilliyimizə, Azərbaycan xalqının tarixinə, dilinə, adət və ənənələrinə, milli dəyərlərinə hörmət və qayğı aşılanır, şagirdlər vətənpərvərlik ruhunda tərbiyə olunurlar. Bu gün məktəbimizdə fiziki cəhətdən hazırlıqlı, bilikli, eyni zamanda Azərbaycan dövləti və xalqı qarşısında öz məsuliyyətini dərk edən, Azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən gənclər yetişdirilir. Təhsil ocağımızın yubileyinin keçirilməsinə və muxtar respublikada təhsilin inkişafına göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdaram.



***Səfa ƏLİYEV:*** – Heydər Əliyev adına tam orta məktəbdə "riyaziyyat" fənnini tədris edirəm. Bir müəllim kimi bu günlərdə ikiqat sevinc yaşadım. Həm məktəbimizdə yenidənqurma işləri aparıldı, həm də təhsil ocağımızın yubileyi geniş şəkildə qeyd olundu. Bu tədbirlər sırasında fəxri ada layiq görülməyim sevincimi daha da artırdı. Heydər Əliyev adına tam orta məktəbdə dərs demək, pedaqoji fəaliyyət göstərmək hər bir müəllim üçün böyük etimaddır. Və hər bir müəllim bu etimadı doğrultmağa çalışır. Odur ki, uğurlarımız getdikcə artır. Məktəbin müəllimləri unutmurlar ki, burada görülən hər bir iş ulu öndərin adına layiq olmalıdır. Məktəbimizin 10 illik yubiley tədbirində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: "Ölkənin tərəqqisi təhsildən, təhsilin inkişafı isə müəllimlərin fəaliyyətindən asılıdır. Bu məktəbdə də əldə olunan nailiyyətlər müəllim tələbkarlığının və şagird çalışqanlığının nəticəsidir. Heydər Əliyev adına tam orta məktəb muxtar respublikanın qabaqcıl təhsil mərkəzi kimi bundan sonra da öz fəaliyyətini genişləndirməlidir".

Məktəbimiz bundan sonra da ölkəmizin qabaqcıl məktəbləri sırasında olacaq, bilikli və vətənpərvər gəncliyin yetişdirilməsi üçün əlimizdən gələni əsirgəməyəcəyik.

**Hazırladı: Sara ƏZİMOVA**

# Seminar-treninq keçirilib

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq, bu il noyabrın 3-dən 15-dək muxtar respublika ərazisində 5-11-ci siniflərdə təhsil alan məktəblilər arasında vərəmin erkən aşkar edilməsi məqsədilə kütləvi tuberkulin diaqnostikası – mantu sınaqları aparılacaqdır. Bu sınaqları icra edəcək pediatr, epidemioloq və vaksinatorlardan ibarət xüsusi briqadaların, orta tibb işçilərinin hazırlığını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində seminar-treninq keçirilib.

Tədbiri giriş sözü ilə açan Səhiyyə Nazirliyinin Tibbi yardımın təşkili şöbəsinin baş məsləhətçi-epidemioloqu Zülfiyyə Həsənova uşaq və yeniyetmələr arasında başlanğıc və məhdud formalı vərəmin erkən aşkar edilib vaxtında müayinə və müalicəyə cəlb edilməsinin mahiyyəti və əhəmiyyəti barədə məlumat verib.

Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanserinin həkimi Məmmədəli Ələkbərov mantu sınağının aparılması ilə bağlı çıxış edib.

Tədbirdə bildirilib ki, bu aksiya 2 mərhələdə keçiriləcək. Birinci mərhələ sınaq inyeksiya şəklində olacaq. İkinci mərhələdə isə, yəni 72 saat sonra həmin inyeksiya yerində reaksiyanın nəticələri yoxlanılacaq. Ona görə də bu aksiya bir neçə mərhələdə aparılacaq. Aksiyanın sonunda reaksiyası şübhəli olan uşaqlar Ağciyər Xəstəlikləri Dispanserində dərin ftiziatr müayinəsinə cəlb ediləcəklər.

Xidməti ərazilərdə mantu sınağına cəlb ediləcək uşaqların 3 gün müddətində siyahıları tərtib olunacaq, ərazi prinsipi üzrə 1 həkim və 2 tibb işçisindən ibarət xüsusi briqadalar fəaliyyət göstərəcəklər.

Seminar-treninqdə əyani vasitələrdən istifadə olunub, dinləyiciləri maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 897